***Emin MƏLİKOV*** *

# AZƏRBAYCAN TARİX ELMİNİN "AKADEMİK YAQUB MAHMUDOV" ZİRVƏSİ

Azərbaycan tarix elminin keçdiyi müxtəlif dövrlərə nəzər salsaq görərik ki, dövlətçilik, azərbaycançılıq, milli məfkurə uğrunda mübarizə aparan, milli dəyərləri üstün tutan, bu yolda inamla irəliləyən, xalqın mənəvi tərbiyəsində önəmli rol oynayan şəxsiyyətlər hər zaman aparıcı rola malik olmuşlar. Belə görkəmli şəxsiyyətlərdən biri ömrünün yarıdan çoxunu Azərbaycan tarix elminin inkişafına həsr edən Yaqub Mikayıl oğlu Mahmudovdur. 1962-ci ildə o, Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Tarix fakültəsini əla qiymətlərlə bitirmiş, Tarix fakültəsi Elmi Şurasının xüsusi qərarı ilə aspiranturada saxlanılır. O zaman sovet dövrü tarixinin öyrənilməsi populyar olmasına baxmayaraq Yaqub müəllim XV əsrin ikinci yarısında Azərbaycan Ağqoyunlu dövlətinin Venesiya ilə əlaqələrinə həsr edilmiş namizədlik dissertasiyası üzrə elmi-tədqiqat işlərinə başlayır və nəticədə uğurla müdafiə etmişdir. Tədqiqat işində ilk dəfə sübut olundu ki, hələ XV əsrdə Azərbaycan Qərbi Avropa dövlətləri ilə geniş ticarət və diplomatik əlaqələr saxlamışdır. Bununla Azərbaycan tarix elmində yeni məktəbin əsasını qoyur. Yaqub Mahmudovun rəhbərliyi ilə Azərbaycanda tarix elmi kompleks şəkildə öyrənilməyə çalışılmışdır. Hələ sovet dövründə nə qədər çətin olsa da, 1972-ci ildə «Azərbaycan SSR xəritələri» atlası çap edildi. Burada qədim və orta əsrlərdə Azərbaycanda mövcud olan dövlətlərin ərazilərı dəqiq göstərilərək geniş oxucu kütləsinə təqdim olundu. Elmi tədqiqatlarında azərbaycançılıq ideyasını əsas tutaraq sübut etdi ki, Azərbaycan alimlərinin dünya elminə verdikləri nailiyyətlərin qiyməti nə qədər əhəmiyyətlidir. Azərbaycan xalqının regionun aborigen əhalisi olduğunu və təşəkkülündə türk tayfalarının böyük rol oynadığını elmi əsaslarla sübut etdi. Azərbaycan müstəqillik qazandıqdan sonra Yaqub müəllim elmi fəaliyyətini hələ sovet dövründə ideyalarının qurduğu, lakin o dövrdə reallaşdırılması çətin olan tarixi problemlərin həllinə yönləndirmişdir. Yazdığı elmi əsərlər Azərbaycan tarix elminin inkişafında əvəzolunmaz mənbələrdir. Ümummilli lider Heydər Əliyev onun elmi fəaliyyətini yüksək qiymətləndirmişdir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 13 fevral 1999-cu il tarixli Fərmanı ilə Yaqub Mahmudov «Şöhrət» ordeni ilə təltif edilmişdir. Bu, görkəmli alimə və Azərbaycan tarix elminə verilən qiymətin nəticəsi idi.

* **Emin Məlikov** - Tarix üzrə fəlsəfə doktoru

Yaqub müəllim erməni tarixçilərinin uydurduğu yalançı tarixi alt-üst etmişdir. Tarix üzrə elmlər doktoru Kərim Şükürovla həmmüəllif olduğu «Qarabağ: real tarix, faktlar, sənədlər» əsərində erməni saxtakarlığına böyük zərbə vuruldu. Bir daha Qarabağın Azərbaycanın əzəli torpağı olduğu sübuta yetirildi. Onun elmi fəaliyyəti şaxələnmiş şəkildə Azərbaycan tarixinin bütün dövrlərini əhatə edir və tarix elmində fundamental elmi əsərlərin yazılışı ilə nəticələnmişdir. Onun elmi redaktoru və həmmüəllifi olduğu «İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi» əsərində xanlığın Azərbaycanın dövlətçilik tarixinin ayrılmaz tərkib hissəsi olduğu bəyan edildi. Aparılmış elmi tədqiqatlar əsasında sübut olundu ki, ermənilərin regionda dövlətçilik ənənələri olmamış və onlar buraya köçürülmüşlər. «Böyük Ermənistan» yalanı elmi əsaslarla və indiki Ermənistan Respublikasının tarixi Azərbaycan torpaqlarında yarandığı bir daha sübut olundu. Aparılmış tədqiqatlar nəticəsində sübut edilib ki, 1918-ci ilə qədər Cənubi Qafqazda heç zaman erməni dövləti olmayıb.

Yaqub Mahmudovun rəhbərliyi ilə ermənilərin Azərbaycan xalqına qarşı törətdiyi soyqırımlar ətraflı şəkildə öyrənilmiş və dünya ictimaiyyətinə tarixi faktlarla çatdırılmışdır. Bakı, Quba, Şamaxı, Lənkəran, Salyan, Neftçala şəhərlərində törədilən soyqırımların elmi bazası yaradıldı və bu sahədə əsərlərin yaranmasına şərait yaratdı. Azərbaycan tarix elminin tədqiqi və tədrisində böyük xidmətlərini nəzərə alaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 14 fevral 2009-cu il tarixli Sərəncamı ilə onu «Şərəf» ordeni ilə təltif etmişdir. Bunu Azərbaycan tarix elminin inkişafında müstəsna rola malik Yaqub Mahmudova göstərilən diqqət və qayğının təzahürü kimi qiymətləndirmək olar.

AMEA-nın Tarix İnstitutuna rəhbərliyə başladığı gündən xalqımızın taleyüklü məsələlərinin həllində əlindən gələni edərək yüzlərlə tarixi əsərin elmi dövriyyəyə daxil olmasını təmin etmişdir. Qarabağın, Naxçıvanın və İrəvan xanlığının tarixinə dair silsilə əsərlərə görə o, Azərbaycan Respublikası Prezidentinin 25 may 2012-ci il tarixli Sərəncamına görə elm sahəsində Dövlət Mükafatına layiq görülmüşdür.

Azərbaycan tarix elmində «Əliyevşünaslıq» məktəbinin əsasını qoymuş və bu istiqamətdə uğurlu fəaliyyət göstərmişdir. Ümummilli lider Heydər Əliyevin respublikaya rəhbərliyi dövrü ətraflı öyrənilmiş və onun siyasi fəaliyyətinin əsas təbliğatçısı olmuşdur.

Yaqub Mahmudovun rəhbərliyi ilə «Azərbaycan Respublikasının tarixi» adlı ikicildlik fundamental elmi araşdırma yazılıb. «Azərbaycan Respublikasının tarixi»nin 1-ci cildi 1991-2003-cü illəri, daha doğrusu, tariximizin Heydər Əliyev dövrünü, 2-ci cildi isə 2003-2016-cı illəri - Prezident İlham Əliyevin başçılığı ilə əldə olunmuş tarixi nailiyyətləri və ölkədə aparılan böyük quruculuq, abadlıq işlərini əhatə edir.





Elmi fəaliyyəti dövründə əldə etdiyi uğurlu nəticələr əsas verir ki, Yaqub Mahmudov Azərbaycan tarix elminin ən yüksək zirvəsini fəth etmiş, yaşının müdrik çağında yüksək intellekt sahibi, güclü təfəkkürə malik, yorulmaz tədqiqatçı kimi uğurla fəaliyyət göstərir.

Hörmətli, Yaqub müəllim! Sizi 80 illik yubileyiniz münasibəti ilə səmimi qəlbdən təbrik edir, cansağlığı , uzun ömür arzu edirəm.

***

Azərbaycan tarix elmində fundamental elmi əsərlərin yaradıcısı olan Yaqub Mahmudov tarix elminin tədrisində də müstəsna rola malikdir. Elm və təhsil sahəsindəki uğurlu fəaliyyət, əldə edilmiş nailiyyətlər bu görkəmli şəxsiyyəti fərqləndirən cəhətlərdən biri olmuşdur. Bu səbəblə Ümummilli lider Heydər Əliyev demişdir: «Şəki bizim Azərbaycan mədəniyyətinin, musiqisinin, memarlığının inkişafında çox böyük rol oynayıbdır. Amma bunu da təmin edən insanlar olmuşlar. Bu insanlar həm tariximizdə, həm də mədəniyyətimizdə var: Rəşid bəy Əfəndiyev, Salman Mümtaz, Sabit Rəhman... böyük şairimiz Bəxtiyar Vahabzadə və bir çox başqaları. Şəki böyük alimlər də yetiribdir. Onlardan biri böyük tarixçi, professor Yaqub Mahmudovdur». Bu, Azərbaycan elminə, mədəniyyətinə, tarixinə və Yaqub Mahmudov şəxsiyyətinə verilən ən yüksək qiymətin nəticəsidir.

1956-cı ildə Yaqub Mahmudov Balakən rayonunun Sarıbulaq məktəbini müvəffəqiyyətlə bitirmiş, həmyaşıdlarından xüsusi bilik və istedadına görə fərqləndiyi üçün həmin məktəbə tərbiyəçi-müəllim kimi işə götürülür. Beləliklə, həyatının mühüm hissəsini təşkil edən müəllimlik fəaliyyətinə ilk dəfə başlamış olur və sonradan bu peşənin ən yüksək zirvəsini fəth edir. 1968-1981-ci illərdə indiki Azərbaycan Dövlət Pedaqoji Universitetində müəllim işləyərkən tələbə və müəllim heyətinin rəğbətini qazanmış, əsl təşkilatçı kimi yaddaşlara daxil olmuşdur. Ali məktəbdə orta əsrlər tarixini tədris edir, tələbələrin elmi biliklərə yiyələnməsini təmin edir, eyni zamanda tədris-metodiki vəsaitlər çap etdirir. Müəllimlik illərində uğurlu pedaqoji fəaliyyəti nəticəsində tələbələrin bir azərbaycanlı kimi formalaşmasında əsas rol oynamışdır. Tarix elmləri doktoru, professor Fəzail İbrahimli müəllimi haqqında demişdir ki, «Müəllimliyin pilləsinin ən yüksək zirvəsində dayanan, dərs üslubu, intizamı, dəyərli məsləhətləri, səmimi münasibəti, ümumiyyətlə, şəxsiyyəti ilə gənclərin həyat yolunu işıqlandıran müəllimlər isə həmişə yadda qalır, xatırlanır. Məhz Yaqub müəllim də dərs dediyi hər bir tələbəsinin yaddaşında qalan belə müəllimlərdəndir».

1981-ci ildə Yaqub müəllimin bilik və bacarığına yaxından bələd olan professor Məlik Orucovun dəfələrlə təkidlərini nəzərə alaraq O, Bakı Dövlət Universitetinin Qədim dünya və Orta əsrlər tarixi kafedrasında fəaliyyətə başlayır. Müəllimlik fəaliyyəti dövründə yüksək elmi-təşkilatçılıq bacarığı, kollektiv daxilində şəxsi nüfuzu artmış və qısa zamanda Tarix fakültəsinin əsas simasına çevrilmişdir. 1986-1990-cı illərdə Universitetin Tarix fakültəsinin dekanı olmuş, milli zəmində tarixçi kadrların hazırlanmasında əsas rol oynamışdır. Universitetdə tarix elminin tədrisi yenidən qurulmuş, tədris planları təkmilləşdirilmiş və yeni dərsliklərin çapı həyata keçirilmişdir. Universitetin Tarix fakültəsində «tarixçi-şərqşünas», «beynəlxalq münasibətlər tarixi», «sosiologiya», «psixologiya», «etnopsixologiya», «etnososiologiya» kimi yeni ixtisaslar açılması nəticəsində tələbə kontingenti xeyli artmışdır. Tarix fakültəsinin nəzdində onun rəhbərliyi ilə «Azərbaycanın maddi mədəniyyəti tarixi», «Tarixi tədqiqatlarda riyazi üsullar», «Tarixi demoqrafiya» adlı yeni laboratoriyalar açılır və xüsusilə Azərbaycan tarix fənninin tədrisi ön plana çəkilir, dərs saatları artırılır. Onun təşəbbüsü ilə respublikada ilk dəfə Tarix liseyi açılır və tarixin tədrisi ölkədə populyarlaşır. «Azərbaycan tarixinin tədqiqi, tədrisi və təbliği üzrə» xüsusi Dövlət Proqramları hazırlanır. Azərbaycan tarix elminin tədrisi sahəsində uğurlu iş aparılır, nadir ixtisaslar üzrə yüksəkixtisaslı kadrların hazırlanması məqsədi ilə Moskva və Leninqrad universitetlərinə tələbələr göndərilir.

1991-1992-ci illərdə onun rəhbərliyi ilə Azərbaycan Respublikasının ilk Təhsil Qanunu dünya standartlarına uyğun hazırlanmış, 1992-ci ilin dekabrında Milli Məclis tərəfindən qəbul edilmişdir. Qanun görkəmli şəxsiyyətin fədakar əməyi və zəhməti hesabına başa çatdırılmış və bununla Müstəqil Azərbaycan Respublikasının təhsil sisteminin əsası qoyulmuşdur.

1994-2004-cü illərdə Bakı Dövlət Universitetinin Tarix fakültəsi intibah dövrünü yaşamışdır. Onun rəhbərliyi ilə fakültənin bakalavr və magistr pillələri üçün 15 ixtisas üzrə yeni tədris planları hazırlanır və yeni ixtisaslar açılır. Xüsusi əhəmiyyət kəsb edən «Azərbaycanşünaslıq» Elmi-Tədqiqat Mərkəzi açılır ki, bu da dövlətçilik, milli məfkurə ideyalarının tələbələrdə formalaşması istiqamətində əsas rola malik olmuşdur.

Müəllimlik sənətinin peşəkarı kimi Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Respublika və Bakı müəllimləri Təkmilləşdirmə institutlarında, BDU-nun Şəki filialı, Lənkəran Dövlət Universitetində, Qərb Universitetində və s. kimi ali məktəblərdə uğurlu fəaliyyət göstərmişdir. Respublikada fəaliyyət göstərən ali məktəblərin tədris və təlim prosesində yaxından iştirak etmiş, tələbə və gənclərin əsl vətəndaş kimi formalaşmasını təmin etmişdir.

Erməni saxtakarlığına qarşı mübarizənin başında durmuş, Azərbaycanın haqq və ədalətli mövqeyinin dünyada təbliğinin əsas təşkilatçısı olmuşdur. Bu





istiqamətdə respublikada tələbə və gənclər arasında mühüm işlərin aparılmasına nail olmuşdur. 2013-cü ildə Oksfordda keçirilən «Elm və təhsil» mövzusunda beynəlxalq elmi konfransda milli dəyərlərin qorunması, yüksək rəşadət və dürüstlük nümayiş etdirdiyinə görə «Kraliça Viktoriya» diplomuna və medalına layiq görülmüşdür.

O, Azərbaycan Respublikasında məktəblilər üçün «Azərbaycan tarixi» və «Tarix» dərsliklərinin ilk müəllifi kimi tarixə daxil olmuşdur. Onun təşəbbüsü ilə ilk dəfə dərsliklərə Heydər Əliyevin ictimai-siyasi fəaliyyəti, dövlətçilik tariximiz, milli dəyərlərimiz, xalqımıza qarşı soyqırımlar, azərbaycançılıq ideyası, türk xalqlarının tarixi və mədəniyyəti daxil edilmişdir.

Yaqub müəllim vaxtaşırı məktəblilərlə görüşüb azərbaycançılıq ideyalarını fəal təbliğ edir. Bu da məktəblilərin dünyagörüşünün formalaşmasında və vətənpərvərlik ruhunda tərbiyə olunmasında mühüm rol oynayır. Onun ideya müəllifi olduğu «Tarixi şəxsiyyətlərimizə sahib çıxaq» layihəsi çərçivəsində Azərbaycan dövlətçilik tarixi və tarixi şəxsiyyətləri layiqincə təbliğ edilmişdir. Ümumtəhsil məktəblərində Cavanşir, Babək, Şəmsəddin Eldəniz, Cahanşah, Uzun Həsən, Şah İsmayıl Xətai, Nadir şah, Ağaməhəmməd şah Qacar və s. tarixi şəxsiyyətlər haqqında tarixçi-alimlər tərəfindən məruzələr oxunmuşdur. Layihənin əhəmiyyəti ondan ibarətdir ki, məktəblilər vətənpərvər ruhda tərbiyə olunur və bununla yanaşı tarix elminə olan diqqət və marağı daha da artırır. 2016-cı il oktyabrın 31-də II Azərbaycan Elm festivalı çərçivəsində məktəblilərlə görüşündə Yaqub müəllim qeyd etmişdir ki, «Milli kimliyimizin qorunması və müasir çağırışlara cavab verməyin yalnız biri yolu var - bu yol mükəmməl təhsildən keçir. Bu gün dünya zəka ilə, beyin ilə fəth olunur. Amma təkcə bilikli olmaq azdır. Vətənin adını ucaltmaq üçün eyni zamanda, dönməz azərbaycançı olmaq gərəklidir». Bununla Azərbaycan məktəblisi qarşısında elmi biliklərə yiyələnməklə yanaşı vətənpərvər və azərbaycançı olmaq məqsədini qoyur. «Tarixi şəxsiyyətlərimizə sahib çıxaq» layihəsi çərçivəsində Heydər Əliyev adına Müasir Təhsil Kompleksi, Bakı Atatürk liseyi, 313, 311, 144, 201, 272, 21 №-li tam məktəblərdə silsilə tədbirlər həyata keçirilmişdir.

Azərbaycanın real tarixinin yaradıcısı və təbliğatçısı Yaqub müəllim tələbələrlə görüşlər keçirir, gəncləri düşündürən sualları cavablandırır, onların maariflənDirilməsi istiqamətində düzgün yolu göstərir. 2019-cu il yanvarın 29-da Bakı Dövlət Universitetinin tələbələrinə «Azərbaycan tarix elmi: dünən, bu gün, sabah» mövzusunda ustad dərsi keçmişdir. Çıxışında bir daha qeyd etdi ki, «Azərbaycanın 5 min illik dövlətçilik tarixi var. Regionun ən qədim dövlətçilik tarixi bizə məxsusdur». Bununla o, dövlətçilik və azərbaycançılıq məfkurəsi ətrafında sıx birləşməyi tələbələrin diqqətinə çatdırdı.

Beləliklə, onun uzunmüddətli pedaqoji fəaliyyəti nəticəsində minlərlə tarixçi müəllim ordusu formalaşıb və o, tarixçi müəllimlərin müəllimi kimi bu ordunun başında gələcəyə inamla irəliləyir. Bu yolda üzüağ, alnıaçıq əsl Azərbaycan vətəndaşı kimi əlindən gələni əsirgəmir. Bu müqəddəs yolda və xalqımızın taleyüklü məsələlərinin həllində göstərdiyiniz xildmətlərə görə Sizə təşəkkür və minnətdarlığımı bildirirəm. Sizi bir daha 80 illik yubileyiniz münasibətilə təbrik edir və cansağlığı arzu edirəm.